*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 29-39*

https://doi.org/10.62837/2025.3.29

**CƏFƏRLİ ƏSMƏR. M.**
*Sumqayıt Dövlət Universiteti, Sumqayıt şəhəri 43-cü məhəllə, Bakı küç. 1*
*e-mail: jafarliasmar90@gmail.com*

# "QƏLƏBƏ" KONSEPTİNƏ PSİXOLİNQVİSTİK YANAŞMA

**Xülasə:**

Məqalədə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin 20.12.2020-ci il Zəfər paradındakı nitqi əsasında "qələbə" konsepti psixolinqvistik aspektdən tədqiq olunur. Nitq prosesində dil vahidlərinin seçimi və üslubi xüsusiyyətləri dinləyicidə emosional təsir yaradır və bu təsir vasitəsilə dərketmə formalaşdırılır. Təhlil nitqin emosional-psixoloji funksiyalarını üzə çıxarır.

**Açar sözlər:** qələbə, konsept, psixolinqvistika, verbal vasitələr, söz, ifadə, emosiya

## A PSYCHOLINGUISTIC APPROACH TO THE CONCEPT OF "VICTORY"

**Jafarli Asmer . M.**

**Abstract**.

The article examines the concept of "victory" from a psycholinguistic perspective based on the speech of the President of the Republic of Azerbaijan, Ilham Aliyev, delivered at the Victory Parade on December 20, 2020. The speech process involves the selection of linguistic units and stylistic features, creating an emotional impact on the listener, which in turn shapes perception. The analysis reveals the emotional and psychological functions of the speech.

**Keywords**: victory, concept, psycholinguistics, verbal means, word, expression, emotion.

## ПСИХОЛИНГВИСТИЧЕСКИЙ ПОДХОД К КОНЦЕПТУ "ПОБЕДА"

**Джафарли А. М.**

**Резюме**

В статье на основе речи Президента Азербайджанской Республики Ильхама Алиева, произнесенной на Параде Победы 20.12.2020 года, рассматривается концепт «победа» с психолингвистической точки зрения. В процессе речи выбор языковых единиц и стилистических особенностей оказывает эмоциональное воздействие на слушателя, способствуя формированию восприятия. Анализ выявляет эмоционально-психологические функции речи.

**Ключевые слова:** победа, концепт, психолингвистика, вербальные средства, слово, выражение, эмоция.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 29-39*

**Giriş:** Dilçilik və psixologiya fərqli elm sahələri olsa da, bir- birilə qarşılıqlı əlaqədə inkişafdadır. Nitq aktı psixolinqvistikanın əsas predmeti olmaqla, nitqi yalnız ünsiyyət vasitəsi kimi deyil, eyni zamanda insanlar arasında psixoloji təsir gücünə malik bir vasitə kimi öyrənir. Əvvəlcə onu qeyd edək ki, dilçilikdə dil psixologiyası və psixolinqvistika anlayışları mövcuddur. Bu anlayışlar eyni məsələyə fərqli yanaşmaları (dil psixologiyası daha çox linqvistik, psixolinqvistika isə daha çox psixoloji aspektdən yanaşır) əks etdirir. Psixolinqvistika psixologiya və dilçiliyin vəhdətindən yaranmış elm sahəsidir. "*Nitqin yaranması və mənimsənilməsi prosesi psixolinqvistika elminin həllinə cəhd etdiyi ən qlobal məsələdir. Daha doğrusu, psixolinqvistika bir elm sahəsi kimi məhz bu problemin araşdırılması məqsədi ilə yaradılmışdır."* [4, s 28] . Danışarkən hansı hissləri ifadə etdiyimiz, yaşadığımız duyğular, affekt halları (ruhi həyəcan, qorxu və s), eyni zamanda, anlama və ya anlaya bilməmə, qızarma, utanma dildən istifadə zamanı duyğuların təsirində baş verən psixoloji proseslər psixolinqvistikada öyrənilir. İnsan danışarkən həm öz, həm də qarşı tərəfin psixi vəziyyətinə, dərk etməsinə uyğun olaraq nitqini müəyyənləşdirir. Belə bir sual yaranır: Nitqin auditoriyaya olan psixoloji təsirində dilin rolu nədən ibarətdir?

Ferdinand de Sössürün dil və nitq anlayışlarını fərqləndirməsi müasir dilçiliyin fundamental əsasını təşkil edir. L. V. Şerbanın üçlük modeli (dil materialı-mətnlər, dil sistemi-lüğətlər, qramma-tika, dil fəaliyyəti-danışıq və anlama nitqi) dilin və nitqin fərdi və sosial aspektlərini daha geniş izah etməyə imkan verir. "*Zinder və Andreyev isə bu modeli daha da genişləndirərək, dörd kateqoriyadan ibarət bir sistem təklif edirlər: dil, nitq, nitq aktı, nitq materialı.*" [8, s 15] Fikrimizcə, bu model dilin konkret tətbiqetmə formalarını daha aydın izah edir. Lakin onların nitq aktını sadəcə bir proses kimi görməsi, fikrimizcə, bir qədər məhdudlaşdırıcıdır. Nitq aktı sadəcə proses deyil, həm də fəaliyyət kimi qiymətləndirilməlidir. Burada "nitq qabiliyyəti" anlayışının nəzərə alınmaması, fikrimizcə, modelin zəif nöqtələrindən biridir. Bununla belə, bu nəzəriyyələrin bəziləri, xüsusən də nitq aktını yalnız proses kimi görən yanaşmalar, müəyyən məhdudiyyətlərə malikdir. A.A. Leontyevin nitq fəaliyyətini motivləşdirilmiş və məqsədyönlü bir fenomen kimi dəyərləndirməsi, nitqin yalnız kommunikativ vasitə deyil, həm də daxili mənəvi ifadə vasitəsi olduğunu vurğulayan orijinal yanaşmadır.

Təfəkkürdə formalaşan hər bir anlayış sözlərlə adlandırılır. Adlandırma anlamaq üçün vacib prossesdir. Söz təfəkkürdə formalaşan fikirləri, var olan hər şeyi adlandıran unikal bir kod kimi çıxış edir. Hər bir söz isə məhz təfəkkürdə yaranır. Mayıl Əsgərov dil struktur vahidlərini nitqin mənbəyi adlandırır. Onun fikrincə, *" söz dərketmə və təfəkkürün vasitəsi yox, son məhsuludur."* [4, s.165] Vıqotski də sözün həm nitq, həm də təfəkkür olduğu fikrini irəli sürür. O, belə hesab edir ki, beyində canlanan fikir sözdə tamamlanır. Zənnimizcə, həqiqətən, insanın

təfəkküründə canlanan fikrini, beynin ətraf aləmdən dərk etdiyini ifadə edən dil vahidi olan sözlərdir. İnformasiya mübadiləsi nitq prosesində reallaşır. Nitq prosesi danışanın fikri səsləndirməsi və dinləyənin fikri qəbul edərək yenidən emal etməsi prosesidir. Düşünürük ki, dərketmə, fikir emalı məhz verbal vasitələrlə ifadə olunduqda proses tamamlanır. Nitqdə dil vahidlərinin seçimi, nitqin üslubi xüsusiyyətləri dinləyicidə müxtəlif emosiyalar oyatmaqla yanaşı, dərin emosional təsir nəticəsində dərketməni də formalaşdıra bilir. Qorbatyukun sözləri ilə desək, “Bir çox sözlər özündə “pis” və ya “yaxşı” anlamında emosional qiymətləndirmə xüsusiyyətini ehtiva edir. Bununla da onlar müəyyən assosiativ görüntülü, eşidilən və hiss oluna biləcək obrazlar yaradır” [5, s 90] Nitqin emosional təsir gücünü artıran dil vahidlərinin seçimi, bu seçimin psixolinqvistik təsirləri hazırkı dövrdə ölkəmizdə, həmçinin, beynəlxalq səviyyədə milli ideologiyanın gücləndirilməsi və ictimai şüurda özünüdərk proseslərinin təhlili üçün *aktualdır*. Eyni zamanda, konseptlərin dil vasitəsilə formalaşması və emosional təsir mexanizmlərinin araşdırılması dünya psixolinqvistikasında yeni yanaşmalara yol açır. Bu yanaşmalar yalnız elmi deyil, həm də ictimai-siyasi səviyyədə əhəmiyyətlidir. Fikrimizi əsaslandırmaq üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 10 dekabr 2020-ci il Zəfər paradında səsləndirdiyi nitqinə baxdıq. Nitq ölkənin tarixi qələbəsini və milli birliyini ifadə edən mühüm mətn kimi bu tədqiqatın əsasında dayanır. Tədqiqatda "qələbə" konseptinin Azərbaycan dilində milli qürur və emosional birliyi əks etdirən məfhum kimi funksiyasını araşdıraraq, Ali Baş Komandan İlham Əliyevin nitqinin leksik-semantik xüsusiyyətlərini psixolinqvistik aspektdən təhlil etməklə mövzunun nəzəri və tətbiqi əhəmiyyətini genişləndirməyi hədəfləyirik. “Qələbə" anlayışının konkret situativ çıxışlar əsasında dərinləşdirilməsi və liderlərin nitqlərindəki psixolinqvistik aspektlərin təhlili geniş tədqiq olunmamış bir sahədir. Bu məqalə həmin boşluğu qismən dolduraraq bu mövzunun gələcək tədqiqatlarına töhfə verə bilər. Məqalədə nitqdən seçilmiş sözlərin və ifadələrin *statistik və semantik analizi* əsasında psixolinqvistik təsir göstəriciləri araşdırılmışdır.

## 1.Nitqin psixolinqvistik analizi: nəzəriyyələr və yanaşmalar

Psixolinqvistika sahəsində V. Humboldt, Leontyev və Xomski kimi alimlərin tədqiqatları bu sahədəki nəzəriyyələrin yaradılmasında fundamental rol oynayır. Müasir Azərbaycan dilçiliyində isə M.B. Əsgərov və Z.Q. Musəvi kimi tədqiqatçılar nitqi psixoloji və koqnitiv aspektdə araşdırmışlar. V.Humboldtun fikrincə, “nitq bir tərəfdən, ümumiyyətlə, səsdir, digər tərəfdən isə hissi təəssüratların, daxilə yönəlmiş ruhi fəaliyyətlərin məcmusudur.” [4, s 32] Vundtun fikrincə, nitqin mənimsənilməsi prosesi onun xarici strukturunun (xarici struktur dedikdə cümlənin sintaktik strukturunu nəzərdə tuturdu) qəbul olunması ilə başlanır. Bu proses fikirlərin sözlərlə ifadə olunaraq sistemli şəkildə strukturlaşdırılmasına imkan yaradır. “V.Vundta görə, nitqi yaratma və onu mənimsəmə funksiyaları tək bir məqsədə xidmət edir ki, bu da

aktiv kommunikantın nitq obyekti ilə bağlı ümumi təsəvvürlərini passiv kommunikantın
həmin obyektlə bağlı ümumi təsəvvürlərinə çevirməkdir. Nitqin yaradılmasına qədərki və ondan sonrakı fəaliyyətləri V.Vundt təfəkkür (və ya düşünmə) hesab edir."[4, s 37] Xomskinin transformativ psixolinqvistika nəzəriyyəsində həm formal dil strukturları öyrənilir, həm də kommunikantın nəzərdə tutduğu məna yükünün dillə ifadəsi öyrənilir. Onun əsas diqqət mərkəzi, dilin sintaktik strukturlarının necə qurulduğunu və bu strukturların fikirlərin ifadə olunmasında hansı rol oynadığını öyrənməkdir. Xomski, xüsusilə, dilin qəbulunu və dinləyicinin nitqi anlama mexanizmlərini araşdıraraq, universal qrammatika konsepsiyasını təqdim edir. Bu yanaşma dil strukturlarının öyrənilməsində fundamental bir mərhələ olsa da, yalnız dinləyici tərəfindən qavrayışa fokuslanması onun birtərəfliliyinə gətirib çıxarır. Nitqin yaranma prosesi (məsələn, düşüncənin dilə çevrilməsi) Xomski nəzəriyyəsində daha az əhatə olunur. Dil işarəsini ünsiyyətin silahı, dərketmənin texnikası adlandıran Leontyev Xomskinin bu fikirlərini tənqid edir. Leontyevin Xomskinin birtərəfliliyini tənqid etməsi onun praktiki dil fəaliyyətinə daha çox diqqət yetirməsinə əsaslanır. Çünki, Xomski nitqin qəbulu və dinləyici tərəfindən mənimsənilməsi məsələsini tədqiq edir, amma nitqin yaranması diqqətdən kənarda qalır. Leontyev sözlərin semantik yükünün nitq fəaliyyətinin psixolinqvistik təhlili üçün əhəmiyyətini göstərmişdir. Xomskinin struktur yönümlü nəzəriyyəsi dilin universal prinsiplərinin anlaşılmasında əsaslı bir mərhələ olmuşdur, lakin Leontyevin semantika və nitqin yaranmasına dair tədqiqatları bu sahədə daha geniş imkanlar təqdim edir.

Ş. Balli və J. Maruzonun araşdırmaları göstərir ki, nitq vasitəsilə insanlar qarşı tərəfə təsir etmək və onların düşüncə tərzini dəyişmək qabiliyyətinə malikdirlər.

Azərbaycan dilçiliyində Mayıl Əsgərov bu barədə yazır: "dil, bir tərəfdən öz struktur vahidləri olan forma və nitq söyləmləri ilə birlikdə təfəkkür proseslərinin son məhsulu kimi meydana çıxır, ikinci bir tərəfdənsə, bir güzgü kimi məhz dərk olunmuş gerçəklik elementlərini əks etdirir. Yəni dil həm yaranması, həm də funksiyası baxımından tam linqvopsixoloji mahiyyət daşıyır." [4, s 12] K.Həbibova isə "Nitq aktının psixolinqvistik xüsusiyyətləri" məqaləsində qeyd edir ki, "koqnitiv aktların əsasında birbaşa olaraq nitqi təsir dayanır" [5, s 92] Müəllifin fikrincə, nitqi təsir insanların biliyinə, dünyagörüşünün formalaşmasına təsir göstərə bilər. K.Həbibova nitq aktının əsas xüsusiyyətləri kimi emosionallıq, kommunikativ uyğunlaşma, iştirakçıların intellektual uyğunluğu, ünsiyyət şəraitinə və ictimai mühitə münasibət olaraq göstərmişdir.

Müasir psixolinqvistika sahəsində təcrübə və metodların genişləndirilməsi, sözlərin emosional yükləri psixolinqvistik analizlərdə diqqət mərkəzindədir. Relyasion nitq aktlarının (danışanın danışdığı vəziyyətdə digər iştirakçı ilə əlaqə qurmasına yönəlmiş nitq aktı, bax: Borozdina I.S. Teoreticheskiye aspekty

kompleksnogo modelirovaniya relyatsionnykh rechevykh aktov / Teoriya yazyka i mezhkul'turnaya kommunikatsiya. Kursk, 2012. №1, c. 1-6) araşdırılması, mediadiskursun təsir mexanizmlərinin öyrənilməsi və dilin koqnitiv modellər vasitəsilə təsviri bu sahənin perspektivlərindən biridir.

**2.Nitqin leksik, semantik, sintaktik vahidlərinin emosional yükü**.

Şəxsiyyətlərarası və ictimai ünsiyyətdə istifadə olunan isimlər konseptual sahələri formalaşdırır. Tarixi hadisələr və milli simvollarla əlaqəli emosional duyğuların gücləndirilməsi üçün vasitə rolunu oynayır. İsmayıl Kazımov "Müasir Azərbaycan dili leksikasının koqnitiv və linqvokulturoloji əsasları" məqaləsində yazır: "*isim bir nitq hissəsi kimi verbal konseptuallaşma sırasında xüsusi yeri tutaraq, xüsusi konseptolma statusuna malikdir. O, polifunksional semantik potensiala sahib nitq hissəsidir, konkret situasiyalarla ifadəsini tapır.*" [5, s 19] Prezidentin nitqində daha çox işlənən isimlər bunlardır: *Şəhidlər, xatirəsi, gün, meydan, parad, dəvət, qardaş, nümayəndə, birləşmə, müharibə, tarix, nailiyyət, işğal, ədalət, zəfər, müharibə, ərazi, siyasət, soyqırımı, şəhər, kənd, qəsəbə, torpaq, ordu, əsgər, döyüş, bayraq, düşmən, xalq, quruculuq.*

Prezidentin nitqində müsbət emosional çalarlara malik isimlər dinləyicidə qürur, milli birlik və ümid hissləri oyadır: *nailiyyət, zəfər, ədalət.* Təkrarlar vasitəsilə vacib konseptlər vurğulanır və auditoriya üzərində təsir gücü artırılır. Nitqdə 6 dəfə *zəfər*, 5 dəfə *qələbə* sözləri təkrarlanır ki, bu da qazanılmış qələbənin əhəmiyyətini vurğulamaqla emosional üslubi çalar yaradır. Mənfi çalarlı sözlər isə keçmiş təcrübələrdən doğan ağrını və ya təhlükəni diqqət mərkəzinə çəkir, qələbə, mübarizə, şərəf və milli birlik mövzularını vurğulayır: *düşmən, işğal, soyqırım* - bu isimlər isə düşmənçiliyi vurğulamaqla, mənfi hadisələri, zərərləri ifadə edir.

Sifətlər təfəkkürdəki fikirlərin dinləyiciyə emosional şəkildə ötürülməsində mühüm rol oynayır, həmçinin, subyektin müəyyən obyekt və ya hadisəyə münasibətini ifadə etməyə imkan verir. Onlar nitqi zənginləşdirir, dinləyicinin emosional iştirakını təmin edir. Rəsmi nitqlərdə istifadə edilən sifətlər, xüsusilə liderlərin çıxışlarında, ictimai emosiyaların istiqamətləndirilməsinə və konkret hadisələrə xalqın münasibətinin formalaşdırılmasına xidmət edir. Cənab Prezidentin Zəfər paradında nitqində istifadə etdiyi *əziz, tarixi, şanlı, şərəfli, müzəffər* kimi sifətlər müsbət qiymətləndirilən, qürur və şərəf ifadə edən cümlələrdə yer alır. *Mənfur* kimi sifətlər nitqdə kəskin qəzəb və nifrət ifadə etməklə, mənfi emosional çalar yaradır. Bu cür sifətlər, xüsusilə düşmənin törətdiyi dağıntılara istinad edərkən, mənfi hadisələrin təsvirində təsirli vasitədir: *"Mənfur düşmən işğal edilmiş bütün torpaqları yerlə-yeksan edib. Bu məlumat artıq hər kəsdə var, videogörüntülər var. Azad edilmiş ərazilərə mənim səfərlərim bunu göstərir. Bütün binalar, bütün tarixi abidələr, məscidlər, qəbirlər, məzarlıqlar mənfur düşmən tərəfindən dağıdılıb. Biz onların hamısını bərpa edəcəyik. Artıq bərpa işləri başlanmışdır."* [1]

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 29-39*

Feillər hərəkətlərin və proseslərin əsas daşıyıcısıdır, bu da konseptlərin dinamikasını yaratmağa imkan verir. Nitqdə feillərin istifadəsi, emosional tonun qurulması və auditoriyaya təsir mexanizmləri kimi xüsusiyyətləri tədqiq etdikdə müəyyənləşdirdik ki, feillərin seçimi, onların emosional çaları və semantik yükü vasitəsilə nitqin təsir gücü daha da artır. Qələbə, mübarizə, iradə, əzm kimi anlayışların vurğulanmasında dinamik və təsirli feillər əsas vasitə rolunu oynayır. Belə ki, nitqdə *məhv etdik, başını əzdik, qovduq* kimi feillər işlədilir, hansı ki bu feillər dinləyiciləri düşmənə qarşı bir olub, birgə mübarizə nəticəsində qazanılmış uğuru ifadə edir. Qələbənin çətinliklərə baxmayaraq əzmkarlıqla əldə edildiyini, düşmənə qarşı güclü iradəni və amansız mübarizəni göstərir. Auditoriyanın düşmənə qarşı qəzəb hissini gücləndirir və bu hissləri birləşdirici gücə çevirir: *"Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla vuruşurdu ki, bu işğala son qoyulsun*" [1]

Nitqdə işlədilən *vuruşurdu, qaldırdı, döyüşdü* kimi feillər konkret hərəkətləri təsvir edir, qətiyyət və cəsarət nümayiş etdirir. Həmçinin, *gücləndirirdik, toplayırdıq, səfərbər edirdik* kimi feillər insanların qələbə ruhunu və milli birliyini dərk etmələrinə, keçmişin acı xatirələrindən dərs çıxararaq gələcəyə ümidlə baxmalarına kömək edir. Fikrimizin daha aydın ifadəsini aşağıdakı nümunələrdə müşahidə edə bilərik:

*Qazanmaq* feili qələbəni təsvir edir və müvəffəqiyyəti vurğulamaq üçün nitq boyunca 6 dəfə istifadə olunur. *Azad etmək* feili nitq boyunca 17 dəfə təkrarlanır. *Vuruşmaq feili* mübarizəni təsvir edir və ordunun şücaətini vurğulayır.

Nitqdə feillərin istifadəsi, onların zaman formaları emosional təsirin gücləndirilməsi və auditoriya ilə effektiv ünsiyyətin qurulmasında mühüm əhəmiyyət kəsb edir. Keçmiş zaman formasında işlədilən feillər tarixi uğurları vurğulayaraq kollektiv yaddaşı gücləndirir. Məsələn: *qazanmışdıq, yaratdıq, göstərdik, yaradırdıq*. İndiki zaman formasında olan feillər davam edən prosesləri dinamik şəkildə təsvir edir. Məsələn: *irəli gedirik, bərpa edirik, müdafiə edirik*. İndiki zamanda işlədilən feillər isə davam edən prosesləri, ardıcıl səyləri və gələcəyə olan bağlılığı vurğulayaraq nitqin dinamikliyini və aktuallığını artırır. *"Bu gün biz birlikdə Zəfər paradında iştirak edərkən, bir daha bizim birliyimizi həm xalqlarımıza, eyni zamanda, bütün dünyaya göstəririk."* [1]– Burada *göstəririk* feili birlik mesajını möhkəmləndirir və birgə gücün ifadəsini verir, auditoriyaya güvən ötürür. Feillərin gələcək zamanda işlədilməsi isə motivasiya hisslərini yaradır. Bu elementlər nitqin emosional yükünü artırır, dinləyicilərin qələbə ruhunu gücləndirir və milli birliyi ifadə edən təsirli bir üslub formalaşdırır: *bərpa edəcəyik, qovacağıq, başa vurmalıyıq və s.*

Prezident İlham Əliyev nitqində 59 dəfə *biz(bizim)* əvəzliyindən istifadə edir. Əvəzliklərin nitq prosesində istifadəsi haqqında Mayıl Əsgərov yazır: “nitq prosesində əvəzlikdən istifadə, ümumiləşdirmə, mücərrədləşdirmə və lakonikliyin ən

yüksək həddidir" [4, s165] Təkrar vacib mesajların möhkəmləndirilməsi və diqqətin əsas konseptlər üzərində cəmləşdirilməsi üçün effektiv vasitədir.

"Voyant tools" proqramı əsasında əldə etdiyimiz, mətndə işləkliyi ilə seçilən ifadələr aşağıdakı qrafikdə aydın göstərilmişdir. 2-ci şəkildə böyük ölçüdə verilən sözlər təkrar sayı çox olan leksik vahidlərdir.




şəkil 1




şəkil 2

Mətndə yüksək işlənmə tezliyi ilə fərqlənən *biz(bizim)* əvəzliyinin psixolinqvistik təsirlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Birlik mesajı**:** *Biz* əvəzliyinin dəfələrlə təkrarı prezidentin xalqla bir olub, ona arxalandığını, xalqın Prezidentinə olan yüksək inamını əks etdirir. Təkrardan istifadə edilərək kollektiv məsuliyyət, həmrəylik və birlik hissi auditoriyada daha dərindən formalaşdırılır: "*Biz bu qələbəni həm peşəkarlıq, qəhrəmanlıq hesabına, eyni zamanda, milli ruh hesabına qazanmışıq."* [1]

2. Motivasiya, inam hissi: **"***Biz düşmən tərəfindən dağıdılmış şəhər və kəndlərimizi birlikdə bərpa edəcəyik."* [1]

3. Mübarizə, əzm: "*biz müharibəni həm döyüş meydanında, həm siyasi müstəvidə qazanmışıq*." [1]

4. Sevinc: "*Bu gün biz qəhrəman xalq kimi bu bayramı qeyd edirik."* [1]

5.Qəzəb, nifrət: "*Amma biz sübut etdik ki, münaqişənin hərbi həlli var*." [1]

6.Tarixə bağlılıq: "*bütün dünya gördü ki, Qarabağ bizim əzəli tarixi torpağımızdır"*. [1]

Nitqdə istifadə edilən sintaktik vahidlər də psixoloji, emosional və ideoloji təsir gücünə malikdir. Prezident İlham Əliyevin çıxışlarında işlənən frazemlər, məcazlar və təkrarlar milli ruhun və emosional bağlılığın təzahürü kimi çıxış edir. Aşağıdakı sintaktik vahidlərə nəzər yetirək:

*Yurd yerləri* ifadəsi - bu birləşmə ev, torpaq və millət anlayışlarını birləşdirir. Auditoriyanın yaddaşında itirilmiş yurd yerləri ilə bağlı hisslər oyadır və onların bərpasının vacibliyini vurğulayır*: "İşğaldan azad edilmiş yurd yerlərimizi yenidən qururuq."* [1]– Cümlə qayıdış və yenidənqurma prosesinin simvolu kimi işlədilir,

dinləyicilərə gələcəyə ümid aşılamaqla yanaşı, cəmdə işlədilən feil birliyi simvolizə edir.

*Qələbə bayrağını ucaltmaq* ifadəsi qələbənin simvolu olan bayrağın qaldırılmasını təsvir etməklə azadlıq, müstəqillik və milli qürur hisslərini oyadır. İfadə vasitəsilə Prezident auditoriyaya qələbə ruhunu ötürür və xalqın birliyini möhkəmləndirir: *"Biz qələbə bayrağını Şuşada ucaltdıq."* [1] - Burada Şuşa şəhərinin azad olunması ilə bağlı qələbə bayrağının qaldırılması təsvir edilir ki, bu da şəhərin tarixi əhəmiyyətini ifadə edir. Nitqdə işlədilən *yaşasın, bərpa edəcəyik, qaldıracağıq* kimi feillər birliyin gücünü hiss etdirir. Prezident İlham Əliyev bu ifadələri işlətməklə özünə, ordusuna, xalqına yüksək inamını ifadə edir.

*İşğalçı qüvvələr*- Bu birləşmə işğal altında olan torpaqların qeyri-qanuni olaraq işğal edildiyini vurğulamaq məqsədini ifadə edir: "*Mən son 17 il ərzində dəfələrlə demişdim ki, Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan işğalçı qüvvələrini çıxarmasa, biz bu məsələni hərbi yollarla həll edəcəyik.* "[1]

*"Qarabağ Azərbaycandır! - "Qarabağ Azərbaycandır! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"* [1]Bu cümlə Qarabağın Azərbaycan ərazisi olduğunu vurğulamaq üçün nitqin sonunda 3 dəfə təkrar olunur. Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu möhkəmləndirir. Millətçilik ruhunu yüksəldir, xalqın Qarabağ məsələsindəki əzm və birlik hissini gücləndirir.

*Şərəfli missiya* - *"Azərbaycan əsgər və zabitləri böyük qəhrəmanlıq, şücaət göstərərək şərəfli missiyanı yerinə yetirdi."* [1] Bu məcaz Azərbaycan ordusunun mübarizəsinin yüksək dəyərlərə malik olduğunu ifadə edir və hərbi fəaliyyətin tərifini artırır.

*Şəhidlərimizin əziz xatirəsi*-Bu ifadə şəhidlərə hörmət və dərin emosional bağlılıq hissini ifadə edir. "Əziz" sözü şəhidlərin xalqın qəlbində xüsusi yer tutduğunu vurğulayır.

*Tarixi zəfər*- Tarixi və zəfər sözləri, müharibənin xalqın yaddaşında qalacağını, xalqın tarixində önəmli bir hadisə olduğunu göstərir. Bu, müsbət emosional yükü artırır. L.S. Vıqotskinin də dediyi kimi, "daxili nitqdə söz sözün mənasından çox-çox kənara çıxan məzmun daşıyıcısına çevrilir."[2, s 430]

*Bütün dünyaya göstəririk* - Bu ifadə qələbənin beynəlxalq səviyyədə tanınmasını və gücünü,qüvvətini,həmçinin siyasi təsirini göstərmək məqsədini daşıyır.

*44 gün* birləşməsi Prezidentin nitqində 6 dəfə təkar olunur. Qısa müddət ərzində əldə olunan əzəmətli uğurun simvolik ifadəsi kimi səslənir.

*Quruculuq dövrü*- Gələcəyə inam, motivasiya hisslərini ifadə edir:" *İndi isə bizim üçün yeni dövr başlayır - quruculuq dövrü."* [1] Bununla da, Prezident müharibə, dağıntılar çətinliklərdən sonra quruculuq işlərinin başladığını vurğulayır.

Nitqdə maraqlı məcazlara rast gəlmək mümkündür. *Dəmir yumruq* ifadəsi nitqdə birliyi simvolizə etməklə yanaşı, gücü və qətiyyəti göstərmək üçün işlədilir.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, ISSN 2224-9257
Filologiya məsələləri № 3, 2025
Səh. 29-39

Prezident İlham Əliyev nitqində bu ifadəni 4dəfə təkrarlanmaqla Azərbaycanın hərbi qüdrətini və xalqın iradəsini qəti hökmlə nümayiş etdirir. Bu məcaz düşməndə qorxu, xalqda hörmət və güvən hissi oyadır. İfadə həmçinin, xalqla olan birliyin və koordinasiyalı mübarizənin əhəmiyyətini vurğulayır: *"Dəmir yumruq yerindədir və bu, hər kəsə bir mesajdır."* [1] Natiq situasiyadan asılı olaraq sözün ya həqiqi ya da məcazi mənasından istifadə edir. Axutinanın da dediyi kimi, "sözün (simvolun) mənası daxili nitqdə mətn situasiyasının mental modelində ikiüzlü Yanus kimi görünür, hansı ki, bir üzü dilçilik sistemlərinə, digəri isə situativ assosiasiyalara əsaslanır."[2, s 431 ]

*Namərd atəş* - Düşmənin mülki əhaliyə qarşı törətdiyi hərbi cinayətləri ifadə etmək və dinc əhaliyə qarşı olan təxribatlarını göstərmək üçün bu ifadə işlədilir. *"Bu namərd atəş nəticəsində 100-ə yaxın mülki vətəndaş, onların arasında uşaqlar, qadınlar həlak olublar. Dörd yüzdən çox mülki vətəndaş yaralanıb, beş mindən çox ev dağıdılıb, ya da ki, o evlərə ziyan vurulub."* [1]

Nitqdə maraqlı üslubi çalar yaradan verbal vasitələrdən biri də frazemlərdir. Nitq boyu düşmənə olan nifrətini ifadə etmək üçün Prezident 3 dəfə *belini qırmaq* ifadəsini, 2 dəfə *başını əzmək* ifadəsini işlədir. Bu, nitqin daha maraqlı, səmimi, hər kəs tərəfindən başa düşülən və yaddaqalan olmasına şərait yaradır.

Nitqdəki sözlərin kontekstual mənaları, auditoriyada yaratdığı psixoloji təsir və bu sözlərin işlənmə tezliyinin statistik göstəricilərinə əsaslanaraq verbal vasitələri emosional məzmununa görə aşağıdakı kimi təsnif etmişik.

| *Emosional məzmun* | *İsimlər* | *Sifətlər* | *Feillər* | *Əvəzliklər* | *Söz birləşmələri* | *Frazemlər* |
|---|---|---|---|---|---|---|
| *birlik* | *qardaş, xalq, dostluq, qardaşlıq* | | *gücləndirirdik, toplayırdıq, səfərbər edirdik* | *biz* | *milli birlik, dəmir yumruq,milli ruh* | |
| *qürur, mübarizə, əzm* | *bayraq, ordu, zəfər, əsgər, siyasət, şəhidlər, əzmkarlıq* | *əziz, şanlı, şərəfli, müzəffər* | *məhv etdik, başını əzdik, qovduq* | | *qələbə bayrağını ucaltmaq, döyüş meydanı* | *(qəhrəmanlığı) dilə gətirmək* |
| *motivasiya, inam, gələcəyə ümid* | *parad, quruculuq, bərpa* | *məqsədyönlü, yenilməz* | *bərpa edəcəyik, qovacağıq, başa vurmalıyıq* | | *quruculuq dövrü* | - |
| *qəzəb, nifrət* | *işğal, soyqırımı, müharibə, döyüş, düşmən* | *mənfur, zərərli, təhlükəli, sərt, birmənalı, təcavüzkar* | *məhv etdik, əzdik* | | *işğalçı qüvvələr, namərd atəş,hərbi təxribat* | *belini qırmaq, başını əzmək, baş qaldırmaq* |
| *sevinc* | *ədalət,zəfər,nailiyyət* | *parlaq, uğurlu* | *qazanmaq, azad etmək* | | *Zəfər paradı, Lələtəpə yüksəkliyində qaldırılmış bayraq* | - |
| *tarixi emosional* | *şəhər, kənd,* | *tarixi, əzəli, doğma* | *qazanmışdıq,* | | *yurd yerləri,* | - |

| *Emosional məzmun* | *İsimlər* | *Sifətlər* | *Feillər* | *Əvəzliklər* | *Söz birləşmələri* | *Frazemlər* |
|---|---|---|---|---|---|---|
| *yaddaş* | *qəsəbə, torpaq, tarix, ərazi* | | *yaratdıq, göstərdik* | | *şanlı tarix, tarixi missiya* | |

Prezident xalqının mübarizə əzmini, Ordusunun qətiyyətini, qəhrəmanlığını göstərmək üçün yeri gəldikcə atalar sözlərindən də istifadə edir: "*Deyirdilər ki, öldü var, döndü yoxdur, sona qədər gedəcəyik. Ermənistan artıq təslim oldu, ağ bayraq qaldırdı, diz çökdü, öz layiqli cəzasını aldı və imdad dilədi Azərbaycan 44 gün ərzində parlaq qələbə qazanaraq Ermənistanı məğlub etdi, işğala son qoydu.* " [1]

Nitq boyunca nəqli cümlələrə daha çox yer verən Prezident 2 ritorik sualdan, 8 nida cümləsindən istifadə edir. Bununla da, artıq doğma olan torpaqların işğalçı qüvvələr tərəfindən zəbt edilməsinə olan dözümsüzlüyünü, eləcə də danışıq yolu ilə həll tapa bilməməsini açıq-aydın şəkildə ifadə edir.

Nitqin ümumi strukturu təhlil edildikdə, ümumilikdə 146 cümlənin istifadə olunduğu müəyyən edilmişdir. Bu cümlələrdən 68-i mürəkkəb sintaktik quruluşa, 78-i isə sadə sintaktik quruluşa malikdir. Beləliklə, mətnin strukturunda sadə və mürəkkəb cümlələrin nisbəti analiz edilərək onun sintaktik müxtəlifliyi müəyyən edilmişdir. Sadə cümlələr: daha çox fikir qarışıqlığı yaratmamaq və fikri konkret, aydın ifadə etmək üçün istifadə olunur: "*Azərbaycan əraziləri 30 ilə yaxın işğal altında idi. Bu gün tarixi bir gündür. Bu gün Azadlıq meydanında Zəfər paradı keçirilir.*" [1] Çıxışda subyekt-obyekt-fel cümlə quruluşu istifadə olunub, bu, çıxışın daha təbii, yaddaqalan, axıcı olmasına kömək edir.. Məsələn*: "Azərbaycan 44 gün ərzində parlaq qələbə qazanaraq Ermənistanı məğlub etdi."* [1]

Mürəkkəb cümlələr məqsədin ardıcıl şəkildə təqdim edilməsini təmin edir, bu da nitqin təsirini artırır*: "Biz uzun illər bütün beynəlxalq tədbirlərdə bu məsələ ilə bağlı həqiqətləri çatdırırdıq, böyük iş aparılmışdır və bu işin səmərəsi oldu." "Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla vuruşurdu ki, bu işğala son qoyulsun, bu haqsızlığa son qoyulsun, ədalət zəfər çalsın..."* [1]

Prezident cümlədə təkrarlardan istifadə edərək maraqlı, qətiyyətli üslubi çalar yaradır: "*Cəmi 44 gün ərzində Ermənistan ordusu məhv edildi, hərbi texnikası məhv edildi, canlı qüvvəsi məhv edildi və Azərbaycan öz gücünü, öz qüdrətini göstərdi.*" [1] *Məhv edildi* sözünün bir cümlə daxilində 3 dəfə təkrarı Azərbaycan Prezidentinin siyasi qətiyyətini və Azərbaycan Ordusunun gücünü əks etdirir. Və ya: "*Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla vuruşurdu ki, bu işğala son qoyulsun, bu haqsızlığa son qoyulsun, ədalət zəfər çalsın, tarixi ədalət zəfər çalsın və buna nail olduq.* "[1]

**Nəticə:** Beləliklə, tədqiqat nəticəsində əldə etdiyimiz nəticələr aşağıdakılar-dır:

1.İsimlər konsept yaratma xüsusiyyətinə malikdir və nitqdə onların təkrarı (zəfər, qələbə, düşmən və s.) diqqəti əsas konseptual məzmuna yönləndirir.

2.Sifətlər auditoriyada müsbət (şanlı, şərəfli, əziz) və ya mənfi ( mənfur və s.) emosional təsir yaradır.

3. Feillərin seçimi və onların emosional çaları nitqin təsir gücünü artırır. I şəxsin cəmində işlədilən feillər milli birliyi ifadə etməklə auditoriyanın düşmənə qarşı qəzəbini gücləndirir.

4.”Biz" əvəzliyinin dəfələrlə təkrarı ilə birlik, sevinc, qürur, tarixə bağlılıq, mübarizə, əzm ifadə olunur.

5. Frazeoloji ifadələr və məcazlar nitqin daha axıcı, yaddaqalan olmasına şərait yaradır.

6.Təkrarlar nitqdə fikrin qətiliyini və gücü, qüdrəti ifadə edir.

## Ədəbiyyat


1. Əliyev İ. Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında nitqi (10 dekabr 2020). https://president.az/az/articles/view/48793
2. Axutina T.V. Porojdenie i vospriyatie rechi i teksta. Rossiyskaya psikholingvistika: itogi i perspektivy (1966–2021) Moskva, 2021,625 s.
3. Borozdina I.S. Teoreticheskiye aspekty kompleksnogo modelirovaniya relyatsionnykh rechevykh aktov / Teoriya yazyka i mezhkul'turnaya kommunikatsiya.Kursk, 2012. No 1, c. 1–6
4. Əsgərov M**.** Linqvo-psixoloji vəhdət nəzəriyyəsi**.** Elm və Təhsil. Bakı, 2015.
5. Həbibova Könül. Nitq aktının psixolinqvistik xüsusiyyətləri. Dilçilik araşdırmaları. Sentyabr-dekabr 2019, № 2. s 88-93
6. Kazımov İ. Müasir Azərbaycan dili leksikasının koqnitiv və linqvokulturoloji əsasları Azərbaycan dili və ədəbiyyatın tədrisi. 2021, № 3 (269), 10–29
7. Qazıyeva N. Lider nitqinin praqmafonetik xüsusiyyətləri. (Heydər Əliyevin nitqi əsasında) Azərbaycan ədəbiyyatşünaslığı, №2, 2023 s 1-9
8. Leontyev A.A. Osnovı psixolinqvistiki**.** Moskva: Smısl, 1997, 287 s.
9. Leontyev A.A. Dil, nitq, nitq fəaliyyətləri**.** Moskva: "Prosveşeniye", 1969.
10. Lakoff G., Johnson M. Metaphors we live by. Chicago: University of Chicago Press, 1981.
11. Dijk T.A. van. Society and Discourse. How Social contexts control text and talk. Cambridge: Cambridge University Press, 2009, 283 p.


**Rəyçi: elmlər doktoru,professor Ramazan Məmmədov**